## Fuad Biləsuvarlı

### Gedirəm

Sevgilim, çağlayan sel sənin olsun
Baharda açılan gül sənin olsun
Bu elə-obaya gəl sənin olsun
Ellərə tapşırıb gedirəm səni.

Hərdən inciyənim küsənim mənim
Nahaqdan qəlbimi üzənim mənim
Nərgizim, bənövşəm, süsənim mənim
Çöllərə tapşırıb gedirəm səni.

Ömürdə xoş keçən ilim ayımsan
Gündüz günəşimsən gecə ayımsan
Sən mənim İlahi Tanrı payımsan
Göylərə tapşırıb gedirəm səni.

Əbədi getmirəm gələcəm yenə
İnan ki sadiqəm mən öz sevgimə
Ətrini gətirər demə heç kimə
Yellərə tapşırıb gedirəm səni!..